

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 198 (21.350)

*13 oktyabr 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

Prezident İlham Əliyev bu il dünyada davam edən böhrana, neftin qiymətinin kəskin düşməsinə, ölkəmizə qarşı əsassız təzyiqlərə və bəzi hallarda təxribatlara baxmayaraq, ötən 9 ayda Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini bildirib. Bu dövrdə iqtisadiyyat 3,7 faiz, sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi 10 faizdən çox, kənd təsərrüfatı istehsalı 6,7 faiz artıb. İlin 9 ayında inflyasiya 3,7 faiz təşkil edib, əhalinin pul gəlirləri 5,8 faiz artıb, ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulub.

Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, səhiyyə naziri Oqtay Şirəliyev, təhsil naziri Mikayıl Cabbarov bu ilin 9 ayında görülən işlərlə bağlı məruzə ediblər.

Yekun nitqində Prezident İlham Əliyev bildirib ki, qlobal rəqabətlilik qabiliyyətinə görə Davos İqtisadi Forumu ölkəmizi 40-cı yerdə qərarlaşdırıb.

Prezident İlham Əliyev "Cənub" qaz dəhlizinin tikintisi ilə bağlı tədbirlərin vaxtında həyata keçirilməsinə dair tapşırıqları verib, ilin sonuna qədər nəzərdə tutulan bütün tədbirlərin uğurla reallaşacağına əminliyini ifadə edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 12 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda dəmir yolunun yaradılmasının 135 illik yubileyi ilə əlaqədar ölkənin nəqliyyat sisteminin inkişafında səmərəli fəaliyyətlərinə görə bir qrup dəmiryol işçisi təltif edilmişdir.

Təltif olunanlar arasında "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin işçiləri də vardır.

**"Tərəqqi" medalı ilə**

Əliyev Mahir Nəriman oğlu

İsmayılov Həsən Fətulla oğlu

Nağıyev Yaşar Abuzər oğlu

## E.B.Hüseyinova "Əməkdar artist" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Muğam sənətinin inkişafındakı xidmətlərinə görə Eytiram Bahadur oğlu Hüseyinova **"Əməkdar artist"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 12 oktyabr 2015-ci il*

## Ordubad rayonunun Tivi kəndində kompleks quruculuq işləri aparılmışdır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar Azərbaycanın incisi Ordubad rayonunun da davamlı inkişafını təmin etmişdir. Artıq rayonun kəndlərində geniş tikinti-quruculuq işləri aparılır. Müasir yollar çəkilir, məktəb binaları və digər sosial obyektlər istifadəyə verilir, məskunlaşma artır. Rayon mərkəzindən 60 kilometr aralıda yerləşən Tivi kəndi qədim tarixi, özünəməxsus adət-ənənələri, zəngin təbiəti, zəhmətkeş insanları və ziyalıları ilə tanınır.

Bu il aparılan quruculuq işləri Tivi kəndini abad yaşayış məntəqəsinə çevirmişdir.

Oktyabrın 12-də Tivi kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Tivi kənd tam orta məktəbi yenidən qurulmuşdur

Ordubadda bu gün təhsilin inkişafına xüsusi qayğı göstərilir. Gənc nəslin hərtərəfli təhsil alması qayğısına qalınır. Rayonda aparılan quruculuq tədbirlərinin önündə məktəb binalarının tikintisi gəlir. Hər il kəndlərdə yeni məktəb binaları tikilir.

Oktyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Tivi kənd tam orta məktəbinə gəlmiş, təhsil ocağında aparılan quruculuq işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 216 şagird yerlik məktəb binasında 4-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kompüter və müəllimlər otaqları, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kitabxana, idman zalı və açıq idman qurğuları vardır. Məktəb kitabxanasında 5 minə yaxın dərslik və bədii ədəbiyyat şagirdlərin istifadəsinə verilmişdir. Kimya-



məlumat alırlar.

Elektron lövhəli sinifdə muxtar respublikanın 217 təhsil müəssisəsi ilə Hüseyn Cavidin ev-muzeyi arasında videoəlaqə yaradılmış, distant dərs keçirilmişdir.

Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, bu il Tivi kənd tam orta məktəbində birinci sinfə 16 şagird qəbul olunmuşdur.

Gənc nəslin sağlamlığının və fiziki inkişafının təmin edilməsində, vətənin müdafiəsinə hər an hazır olan mərd və cəsur vətəndaş kimi yetişməsində idman və hərbi hazırlıq dərslərinin mühüm rolu vardır. Tivi kənd tam orta məktəbinin lazımi əyani vasitələrlə təchiz olunan hərbi kabinəsi, geniş idman zalı və şahmat sinfi gənclərin hərtərəfli inkişafını təmin edəcəkdir.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, Tivi kənd tam orta məktəbində müasir tədris şəraiti ya-






biologiya və fizika laboratoriyaları ən müasir cihaz və sınaq-təcrübə avadanlıqları ilə təchiz olunmuşdur.

Sinif otaqları və kabinələr yeni tədris avadanlıqları ilə təchiz olunmuş, kompüter sinfində 19 kompüter quraşdırılmış və internetə qoşulmuşdur.

Bildirilmişdir ki, muxtar respublikada elektron tədrisin inkişafına xüsusi diqqət yetirilir. Xüsusilə elektron lövhələrdən istifadə edilməsi tədrisin əyaniliyini təmin edir, keçirilən dərslər şagirdlər tərəfindən daha asan mənimsənilir. Elektron lövhəli siniflərin yaradılması həm də məktəblərlə muzeylər arasında distant dərslərin keçirilməsinə imkan verir, şagirdlər görkəmli şəxsiyyətlərimiz, tariximiz, maddi-mədəni irsimiz, milli dəyərlərimiz haqqında ətraflı

radılmışdır. Məktəbin zəngin təhsil ənənələri bu gün də davam etdirilir. Ötən tədris ilində məktəbin məzunlarından 10-u ali məktəblərə, 1 şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur.

*Ardı 2-ci səhifədə*

Ali məktəblərə qəbul olanlardan 3-ü 500-700 arası bal toplamışdır. Bu gün məktəbdə yaradılan şərait təhsilin keyfiyyətinin yüksəldilməsinə və nailiyyətlərin daha da artırılmasına imkan verəcəkdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Məktəbin ən əsas vəzifəsi xalqımıza və ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır".*** Buna görə də şagirdlərin yaxşı təhsil alması ilə yanaşı, onların layiqli vətəndaş kimi yetişdirilməsi də pedaqoji kollektivin qarşısında duran başlıca vəzifədir. Məktəbi bitirən hər bir gənc gələcəkdə mütləq bir peşə sahibi olmalıdır. Çünki insan o zaman əsl vətəndaş olur ki, o, sahib olduğu peşəsi ilə ölkəsinə və xalqına xidmət etsin.

Ali Məclisin Sədri yaradılan şəraitin bundan sonra da öz bəhrəsini verəcəyinə əminliyini bildirmiş, qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür etmişdir.

Müəllim Afət Xanəliyeva minnətdarlıq edərək demişdir ki, bu gün Tividə hərtərəfli şəraiti olan məktəb binasının istifadəyə verilməsi ölkəmizdə təhsilin inkişafına və gənclərin hərtərəfli formalaşmasına göstərilən qayğının real ifadəsidir. Kənd məktəbində yaradılan şərait şagirdlərin yaxşı təhsil almasına, vətənpərvər ruhda böyüməsinə geniş imkanlar açmışdır. Müəllimlər müasir tədris vasitələrindən istifadə etməklə kənddə təhsilin səviyyəsini daha da yüksəldəcəklər.



## Tivi Kənd Mərkəzinin açılışı olmuşdur





Oktyabrın 12-də Tivi Kənd Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Tivi kəndində aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik edərək demişdir: Ordubad rayonunun ucqar dağ kəndlərindən biri olan Tivi dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşir. Səfalı təbiəti olan Tivi kəndində insanların rahat yaşaması, məskunlaşmanın artması istiqamətində dövlətimiz tərəfindən mühüm tədbirlər həyata keçirilmişdir.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsi bütün sahələrdə inkişafı təmin etmişdir. Bu inkişafdan hər bir yaşayış məntəqəsinə pay düşmüşdür. Ucqar dağ kəndi olmasına baxmayaraq, müstəqillik illərində Tivi kəndinin də inkişafı istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Keçmiş Sovetlər Birliyi dövründə həyata keçirilə bilməyən tədbirlər bu gün kənddə reallaşdırılmış, Tivi müasir Azərbaycan kəndinə çevrilmişdir. Kənddə məktəb binası, həkim ambulatoriyası, xidmət mərkəzi, dövlət qurumlarının fəaliyyət göstərməsi üçün kənd mərkəzi tikilərək istifadəyə verilmiş, yolu abadlaşdırılmış, elektrik enerjisi və təbii qazın verilişi təmin edilmiş, müasir rabitə xidməti yaradılmış, poçt bölməsi istifadəyə verilmişdir. Bir sözlə, Tividə əhaliyə nümunəvi xidmət göstərilməsi üçün bütün imkanlar vardır. Bu da insanların vaxt itkisinə yol vermədən öz problemlərini kənddə həll etməsinə imkan verəcəkdir. Ona görə də sakinlər qurulanları, tikilənləri qoruyub saxlamalı, kəndin inkişafına öz töhfələrini verməlidirlər. Dövlət qurumlarının əməkdaşları yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər.

"Tivi kəndinin abadlaşması ölkəmizdə həyata keçirilən sosial siyasətin tərkib hissəsidir. Dövlətimizin vətəndaşlarına göstərdiyi qayğının daha bir nümunəsidir. Eyni zamanda bu tədbirlər kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına, insanların ucqar dağ kəndlərində də rahat yaşamasına xidmət edir", – deyən Ali Məclisin Sədri kəndin inkişafında xidməti olanlara təşəkkür etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, üçmərtəbəli binada rabitə evi, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, polis sahə və baytarlıq məntəqələri, kitabxana, mədəniyyət evi və iclas zalı vardır.

Kəndlərdə baytarlıq xidmətinin düzgün təşkili xəstəliklərin qarşısının alınmasında, heyvandarlığın və arıçılığın inkişafında mühüm şərtdir. Kənd mərkəzində baytar həkimlərin fəaliyyəti üçün hər cür şərait yaradılmış, baytarlıq məntəqəsi lazımi dərman vasitələri və soyuducu ilə təmin olunmuşdur.

Baxış zamanı məlumat verilmişdir ki, Tivi kəndində əsas təsərrüfat sahələrindən biri arıçılıqdır. Hər il kənddə bol və keyfiyyətli bal istehsal olunur. Baytar həkimlər mütəmadi olaraq arıçılarla görüşür, onlara dərmanlar verilir. Həmçinin kənddə heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılır, mal-qaranın cins tərkibi yaxşılaşdırılır.

Rabitə evi binanın birinci mərtəbəsindədir. Burada 384 yerlik müasirtipli ATS quraşdırılmış, poçt fəaliyyəti və internetin verilməsi təmin olunmuşdur. Mərkəzdə kənd kitabxanası üçün də müasir şərait yaradılmışdır. Hazırda kitabxananın fondunda 12 min 408 kitab vardır.

Tivi kənd bələdiyyəsinin sədri Oruc Hüseynov bildirmişdir ki, əvvəllər insanlar şəhərdə məskunlaşmağa üstünlük verirdilər. Lakin son illər kəndlərin abadlaşması, yeni iş yerlərinin açılması, təsərrüfatların inkişafı üçün dövlət tərəfindən verilən dəstək, bir sözlə, kənddə şəhər rahatlığının yaradılması insanların yurd-yuvalarına bağlılığını artırmışdır. Bu gün Tivi kəndi də insanların rahat yaşadığı, məskunlaşmanın ilbəil artdığı yaşayış məntəqəsidir. Oruc Hüseynov bütün bunlara görə kənd sakinləri adından minnətdarlıq etmişdir.

Kənd mərkəzinin həyəti də abadlaşdırılmış, ətrafında yaşıllıqlar salınmışdır.

## Tivi kənd həkim ambulatoriyası üçün yeni bina inşa edilmişdir





Əhalinin sağlamlığının qorunması ölkəmizdə diqqət mərkəzində saxlanılır. Yaşayış məntəqələrində yeni səhiyyə ocaqları tikilərək istifadəyə verilir, sakinlərə müasir tibbi xidmət göstərilir.

Bu tədbirlərin davamı olaraq oktyabrın 12-də Tivi kəndində həkim ambulatoriyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Xəstəxanatipli ambulatoriya binası 3 mərtəbədən ibarətdir. Binada 12 xidməti otaq, o cümlədən baş həkim, doğuş, peyvənd, mama, manipulyasiya, feldşer, qeydiyyat, tibb bacısı, sanitar otaqları, stomatoloq üçün kabinə, palata və aptek vardır. Otaqların hər biri təyinatına uyğun tibbi avadanlıqlar və zəruri inventarlarla təchiz edilmişdir. Hazırda ambulatoriyada 5 tibb işçisi sakinlərə xidmət göstərir.

Həkim ambulatoriyasının istifadəyə verilməsi kənddə müalicə-profilaktika işlərinin səmərəli təşkilinə şərait yaradacaqdır. Səhiyyə işçiləri müasir tibbi avadanlıqlardan istifadə edərək sakinlərin sağlamlığını qoruyacaq, əhalinin müalicə və müayinəsi, dərman vasitələri ilə təmin olunması diqqət mərkəzində saxlanılacaqdır.

Ali Məclisin Sədri səhiyyə xidmətinin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

*Ardı 3-cü səhifədə*

# Əhalinin gündəlik məişət tələbatı xidmət mərkəzində ödəniləcəkdir








Tivi kəndinin sakinlərinin üz tutacağı yeni ünvanlardan biri də xidmət mərkəzidir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, mərkəzdə ərzaq və təsərrüfat malları olmaqla, 2 mağaza və ət satışı yeri fəaliyyət göstərir. Həmçinin burada 2 yerlik bərbərxana və qadın gözəllik salonu da istifadəyə verilmişdir.

Xidmət mərkəzinin istifadəyə verilməsi ilə yeni iş yerləri açılmış, 6 nəfər işlə təmin olunmuşdur.

* * *

Kəndin girişində 4 kilometr məsafədə yol yatağı genişləndirilərək qum-çınqıl qatı verilmiş, 3 selötürücü, 29 su keçidi qoyulmuşdur. Tivi və Parağa kəndləri arasında 8 kilometr məsafədə fiber-optik, kənd daxilində isə 2100 metrlik rabitə və 1 kilometrlik elektrik xətləri çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

***Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında bağlanmış Qars müqaviləsindən 94 il keçir. Qars müqaviləsi ilə Türkiyə və Cənubi Qafqaz respublikaları arasında ərazi-sərhəd məsələləri həll olundu. Bu müqavilənin əsas müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə üst-üstə düşürdü. Qars müqaviləsi Moskva müqaviləsi ilə müəyyənləşdirilmiş müddəaların təsdiq edilməsi idi.***

# Qars müqaviləsi və Naxçıvanın ərazi taleyi

Qars müqaviləsində öz ədalətli həllini tapan bir sıra məsələlər əvvəlki müqavilələrdə – Gümrü (Aleksandropol) və Moskva müqavilələrində də ya müzakirə olunmuş, ya da imzalanmışdı. "Böyük Ermənistan" yaratmaq üçün bir sıra torpaqlara iddialı olan ermənilər bu torpaqları əldə etmək üçün siyasi və hərbi vasitələrdən istifadə edirdi. Bu yolda onlara iri kapitalist dövlətləri kömək edirdi. Konkret olaraq Azərbaycanın bir sıra ərazilərini, xüsusilə Naxçıvan ərazisini ABŞ, İngiltərə və Rusiya çox ciddcəhdlə Ermənistana vermək istəyirdi. Ermənilər "böyük Ermənistan" uğrunda Türkiyə və Azərbaycanla müharibə aparırdı. Türk ordusu 24 sentyabr 1920-ci ildə ermənilərin hücumlarının qarşısını almaq üçün onlarla müharibə aparmalı oldu və həmin il noyabr ayının 18-də daşnakları məğlub etdi. Dekabrın 2-də Ermənistanın daşnak hökuməti ilə Türkiyə arasında Gümrü müqaviləsi bağlandı. Daşnaklar xəyallarında qurduqları "böyük Ermənistan"ın ərazisinin İrəvan və Göyçə gölü rayonu ilə məhdudlaşdığını etiraf etdilər. Gümrü müqaviləsinin 2-ci maddəsində tərəflər Naxçıvan bölgəsi ilə bağlı aşağıdakı razılığa gəlmişdilər: Ermənistan Kükü dağı, Həməsür dağı, Qurdqulaq kəndi, Sayat dağı, Arpaçay evləri, Qəmərli dağı, Saray bulaq dağları, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasuyun töküldüyü yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) əraziyə daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara qarışmayacaq, indiki ərazidə həlelik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır.

Müqavilənin 12-ci maddəsinə əsasən isə Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürmüşdü. Gümrü müqaviləsinə görə Dəvəli və Arazdəyəndən başqa bugünkü Naxçıvanın sərhədləri, demək olar ki, müəyyənləşdirilmişdi. Lakin nədənsə, tarixən türk bölgələri olan Uluxanlı, Qəmərli və ən başlıcası isə 1920-ci ilə qədər Naxçıvanı erməni hücumlarından qoruyan Böyük Vedi və ətrafındakı bir çox kəndlər ermənilərə verilmişdi. Bunun nəticəsində Naxçıvanın şimal-qərb sərhədi Dəvəli olmuşdu.

Ermənistanın daşnak rəhbərliyi Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edirdi. 1918-1920-ci illərdə ermənilər silahlı qüvvələrdən istifadə edərək Naxçıvanda soyqırımlar törətmiş, lakin əhalini tabe edə bilməmişlər. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilə ilə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana güzəşt edilmişdi.

1920-ci il noyabrın 29-da Ermənistanda bolşevik hakimiyyəti yaradıldı. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafeyinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: *"... Bundan sonra heç bir ərazi məsələsi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir. Zəngəzur ərazisində bütün hərbi əməliyyatlar dayandırılır. Sovet Azərbaycanının bütün qoşunları oradan çıxarılır".*

Azərbaycan İnqilab Komitəsinin bəyanatı Naxçıvan və Zəngəzur müsəlman əhalisinin güclü narazılığına səbəb oldu. Ermənilərin alçaq niyyətlərinə bələd olan Naxçıvan əhalisi diyarın Azərbaycandan qoparılmasına qarşı etiraz etdi. Bu bəyanat Türkiyə nümayəndələrinin də etirazı ilə qarşılandı. Vəziyyətin kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. Naxçıvan əhalisi ilə görüşlər zamanı Behbud ağa Şahtaxtinski açıqca demişdi: *"Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər".*

Behbud ağa Şahtaxtinskinin keçirdiyi mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərbaycan SSR-in himayəsində müstəqil sovet respublikası kimi təşkil edilməsi arzusunda olduqlarını bildirmişdi. Ermənistan Respublikası Naxçıvan əhalisinin iradəsi qarşısında dura bilməyib diplomatik fənd işlətdi və Naxçıvanı 1920-ci il 28 dekabr bəyanatı ilə müstəqil sovet respublikası kimi tanıdığını bildirdi və daşnakların ona qarşı ərazi iddialarından imtina edildiyi göstərildi. Rusiya tərəfi də müəyyən siyasi səbəblərdən Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşaraq Türkiyə tərəfinin təkliflərini, Azərbaycan bolşevik rəhbərlərinin bir sıra üzvlərinin mövqeyini nəzərə alaraq Naxçıvanın öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qaldı.

Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi. Ermənistan SSR hökuməti Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərdi. Lakin 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizdən çoxu mahalın muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasına çalışan Behbud ağa Şahtaxtinskinin fəaliyyətini xüsusi qeyd etməliyik. Onun Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi 1921-ci il 1 mart tarixli teleqram-məktubunda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan, Şimali Qafqaz müsəlman xalqlarının milli tərkibi, sayı haqqında məlumat verilir. O, bu məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Behbud ağa Şahtaxtinskinin təklifləri V.İ.Lenini maraqlandırmış və o, məsələnin RK(b)P MK Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş vermişdi.

Bu zaman Türkiyə nümayəndə heyəti Rusiya ilə danışıq aparmaq və müqavilə bağlamaq üçün Moskvaya gəlmişdi. Nümayəndə heyətinə əvvəlcə Bəkir Sami bəy, sonra isə Yusif Kamal bəy rəhbərlik edirdi. Fevralın 26-da başlayan danışıqlar martın 16-da "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi ilə nəticələndi. Müqavilə 16 maddə və 2 əlavədən ibarət idi. Həmin gün RK(b)P MK Siyasi Bürosu Behbud ağa Şahtaxtinskinin təkliflərini bəyənərək Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikası yaradılması haqqında qərar qəbul etdi. Moskva müqaviləsinin üçüncü maddəsinə əsasən, Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verildi.

Moskva danışıqlarında Azərbaycanın RSFSR-dəki səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinskinin böyük əməyi və xidməti olmuşdur. Rusiya Moskva konfransında Azərbaycanın iştirakını təkid etsə də, Moskvada olan Behbud ağa Şahtaxtinski bunun əleyhinə olmuşdur. O, Moskvadan Azərbaycanın xarici işlər üzrə xalq komissarı M.D.Hüseynova göndərdiyi məktubda yazırdı: *"...Şəxsən mən Azərbaycanın konfransda iştirak etməsinə mənfi münasibət bildirməyimi onunla izah etmişəm ki, mənim orada deyəcəyim elə bir şey yoxdur. Hər bir xırda məsələyə görə isə türklərin əleyhinə getməyimiz, ümumiyyətlə, bizə sərf etmir, çünki mənim onlara böyük təsirim var. Məni Anadoluda həyata keçiriləsi bir çox kombinasiyalar gözləyir və əgər mən konfransda Azərbaycana heç bir dəxli olmayan məsələlərdə türklərə qarşı çıxsam, bütün bu imkanlardan məhrum olaram".*

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi və müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi.

Sovet Rusiyası ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi ilə Cənubi Qafqaz respublikaları arasında mübahisəli olan bir çox məsələlər öz hüquqi həllini tapdı. Bundan sonra Rusiya çalışırdı ki, Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid müqavilə imzalansın. Lakin Türkiyə istəyirdi ki, üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə imzalansın. 1920-1921-ci illərdə Cənubi Qafqazın tam sovetləşdirilməsi və bu respublikalarda siyasi hakimiyyətin faktiki olaraq Sovet Rusiyasının nəzarətinə keçməsi Türkiyəni Sovet Rusiyasının təklif etdiyi formatda müqavilə imzalamağa məcbur etdi. Türkiyənin bu formatda danışıqlara getməsinin başqa səbəbləri də var idi. İlk növbədə, Türkiyə Moskva müqaviləsini imzalamaqla özü üçün çox mühüm bir neçə məsələni həll etmişdi. Bunlar aşağıdakılar idi: 1. Sovet Rusiyası XVIII əsrin sonlarından etibarən Türkiyəyə qarşı tətbiq etdiyi kapitulyasiya rejimindən və xristian əhalinin işləri ilə əlaqədar Türkiyənin daxili işlərinə qarışmaqdan imtina etdi. 2. Türkiyə XIX əsr boyunca çar Rusiyası ilə apardığı müharibələrdə Şərqi Anadoluda və Qafqaz bölgəsində itirdiyi torpaqların əksəriyyətini geri qaytardı (Qars, Kağızman, Ərdəhan, Oltu, Artvin sancaqlarını bütünlüklə, Batum və Sürməli sancaqlarının da bir qismini, ümumi sahəsi 23,6 min kv.km ərazini). 3. Naxçıvanın Azərbaycanın tərkibində saxlanmasına və onun himayəsi altında muxtariyyət yaradılmasına nail oldu. 4. Gürcüstana verilməsinə razı olduğu Batum və ətraf bölgələri əhatə edən ərazidə muxtariyyət yaradılmasına nail oldu.

*Ardı 4-cü səhifədə*

5. Türkiyə Antanta dövlətlərinə qarşı mübarizədə Sovet Rusiyasından böyük maddi, hərbi və mənəvi kömək aldı.

Aparılan diplomatik danışıqlar və yazışmalardan sonra Türkiyə ilə üç Cənubi Qafqaz respublikası arasında Rusiya nümayəndəsinin iştirakı ilə konfransın 1921-ci il sentyabrın 26-da Qars şəhərində keçirilməsi razılaşdırıldı. AK(b)P MK Siyasi Bürosunun 1921-ci il 26 avqust tarixli qərarı ilə xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud ağa Şahtaxtinski Azərbaycan SSR-in konfransdakı nümayəndəsi təyin olundu. Azərbaycan diplomatiyası çalışırdı ki, Qarsda güclü təmsil olunsun. Behbud ağa Şahtaxtinskinin konfransda iştirakı faktının özü Sovet Azərbaycanı rəhbərliyinin bu məsələyə böyük əhəmiyyət verdiyini göstərirdi. Lakin Azərbaycan Kommunist Partiyasının rəhbərliyində olan S.Danielyan, L.Mirzoyan, A.Mikoyan S.Orconikidze ilə birlikdə hələ 1921-ci ilin iyununda Behbud ağa Şahtaxtinskini danışıqlardan uzaqlaşdırmağa və onu özləri üçün daha əlverişli adamla əvəz etməyə can atırdılar. Lakin Nəriman Nərimanovun bu məsələ ilə bağlı prinsipial mövqeyi sayəsində Behbud ağa Şahtaxtinski fəaliyyətini davam etdirə bildi. Qeyd etməliyik ki, Naxçıvan SSR Xalq Komissarları Soveti Qars konfransında Naxçıvan ölkəsinin mənafeyini müdafiə etmək üçün Tağı Səfiyevi ora ezam etmişdi.

Qars konfransı 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək keçirildi. Açılışda Kazım Qarabəkir paşa, Yakov Qanetski və Askanaz Mravyan çıxış etdilər. Qars danışıqları çox gərgin və prinsipial keçmiş, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etmişlər. Türkiyə nümayəndə heyəti üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə bağlamağı təklif edirdi. Kazım Qarabəkir paşa bunu belə əsaslandırırdı ki, *"Moskva hökuməti Güney Qafqaz respublikalarını müstəqil tanıdığını bildirir. Ona görə də biz onların hər biri ilə müstəqil dövlətlər kimi ayrıca müqavilə bağlamaq istəyirik"*. RSFSR-in nümayəndəsi Y.Qanetski isə bir ümumi müqavilənin bağlanmasında israr edirdi və xeyli sayda dəlillər gətirirdi. Əslində isə Y.Qanetskinin gətirdiyi dəlillər Rusiyanın bu respublikaların xarici siyasətini ləğv etmək, özünə birləşdirmək, gələcəkdə isə vahid dövlət yaratmaq niyyətlərinə xidmət edirdi.

Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə üç Cənubi Qafqaz respublikası arasında 1921-ci il oktyabrın 13-də Qarsda müqavilə imzaladı. Müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Ümumilikdə isə bu sənəddə qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr və Sevr müqaviləsi rədd edilirdi. Müqavilə Qars və Batumun ərazi məsələləri üzrə bütün müddəalar kompleksini, nəqliyyat kommunikasiyalarının fəaliyyətini və vətəndaşların azad hərəkətinin təmin edilməsi, milli və dini mənsubiyyətindən asılı olmayaraq, vətəndaş hüquqları məsələlərinin sarsılmazlığı kimi məsələləri əhatə edirdi. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdu. Moskva müqaviləsindən fərqli olaraq Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdi. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular. Müqavilənin bu maddəsində göstərilirdi ki, *"Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər"*.

Naxçıvan bölgəsinin ərazisi isə müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində müəyyən edilirdi: *"[Naxçıvan ərazisi] Urmiya kəndindən [başlayır], oradan düz xətt ilə Arazdəyən stansiyasına (bu stansiya Ermənistan SSR-ə qalacaq), sonra düz xətt ilə Daşburun dağının (3142) qərbinə, oradan Daşburun dağının suayırıcısını (4108), Cəhənnəmdərəsi çayını, Bağırsaq dağının suayırıcısını (6607 və ya 6587) keçərək, "Rod." (Bulaq) yazısının cənubundan keçmiş İrəvan və Şərur-Dərələyəz qəzalarının inzibati sərhədləri ilə gedərək, 6629 yüksəkliyindən Kömürlüdağa (6839 və ya 6930), oradan 3080 yüksəkliyinə, Sayatdağa (7868), Qurdqulaq kəndinə, Həməsür dağına (8160), 8022 yüksəkliyinə, Küküdağa (10282) və [nəhayət] keçmiş Naxçıvan qəzasının şərqi inzibati sərhədinə [qurtarır]"*.

Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və təbeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etdi. Qars müqaviləsi müddətsiz imzalanmış və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilmiş və həmin il sentyabrın 11-dən qüvvəyə minmişdir.

Azərbaycanın tərkibində Naxçıvana muxtariyyət statusunun verilməsini yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu, çətin bir dövrdə böyük mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Qars müqaviləsi imzalandıqdan sonra Naxçıvan bölgəsi Sovet Sosialist Respublikası elan olunmasına baxmayaraq, Ermənistan Qars müqaviləsinin bu maddəsindən müəyyən bəhanələrlə imtina etməyə cəhd göstərdi və Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış etməyə başladı. Zaqafqaziya MİK-in qərarları ilə 1929-1931-ci illərdə Naxçıvan MSSR-in ərazisinin bir qismi qanunsuz olaraq Ermənistana verildi. Belə ki, 1929-cu ildə Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Ağbinə, Ağxaç, Almalı, Dağ Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qərçıvan sovetliyinə daxil olan Mehri, Buğakər yaşayış məntəqələri, Kilit kəndinin bir hissəsi, ümumən, 657 kvadratkilometr sahə Ermənistana verildi. Sonrakı illərdə də bir sıra ərazilər Ermənistana birləşdirildi. 1990-cı illərdə erməni silahlı qüvvələri Kərki kəndini işğal etdilər. Beləliklə, Naxçıvan Muxtar Respublikasının beynəlxalq Qars müqaviləsi ilə təsbit edilmiş ərazisinin, təqribən, 15 faizi keçən əsrin 20-90-cı illərində Ermənistan tərəfindən qanunsuz olaraq zəbt edilmişdir.

Qars müqaviləsində muxtariyyətin əsası qoyulmuş, Naxçıvan ərazisində Naxçıvan SSR yaradılmış, lakin 1923-cü il iyunun 16-da siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilmişdir. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

1926, 1937 və 1978-ci illərdə Naxçıvan MSSR-in konstitusiyaları qəbul edilmişdir. Bu konstitusiyalarda Naxçıvan MSSR-in siyasi, hüquqi və iqtisadi sisteminin əsasları müəyyən edilmişdi. Müstəqillik dövründə isə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası 1998-ci ildə qəbul olunmuşdur. Bu Konstitusiyada Naxçıvan Muxtar Respublikasının statusu "Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır" şəklində təsbit olunmuşdur. Son illərdə muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni həyatında çox böyük uğurlar qazanılmışdır.

Naxçıvanı ələ keçirmək istəyən, bunun üçün hər cür vasitələrdən istifadə edən, *"Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz"*, – deyən ermənilərin qarşısına Qars müqaviləsi ilə sədd çəkilmişdir. Bu müqavilənin şərtlərini də erməni daşnakları dəfələrlə pozmuşdur. Ermənistan Respublikasının Naxçıvana qarşı hər hansı ərazi iddiaları heç bir hüquqi əsasa malik deyil və beynəlxalq hüquq normalarına ziddir. Həm Moskva, həm də Qars müqavilələri bu günədək etibarsız elan edilməyib və bundan sonra da öz hüquqi qüvvəsini saxlayacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi, ***"Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir".***

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

*13 oktyabr Azərbaycan dəmiryolçularının peşə bayramı günüdür*

# Muxtar respublikada dəmir yolu nəqliyyatı davamlı inkişaf yolundadır

*Bu il Azərbaycan dəmir yolu nəqliyyatının yaradılmasının 135 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 5 oktyabr tarixli Sərəncamı ilə hər il oktyabrın 13-ü ölkəmizdə dəmiryolçuların peşə bayramı günü kimi qeyd edilir.*

Dəmir yolu nəqliyyatının ən sürətli və parlaq inkişaf dövrü ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdən başlamışdır. 1969-cu ildə respublika rəhbərliyinə gələn ulu öndərimizin həyata keçirdiyi kompleks tədbirlər digər sahələr kimi, dəmir yolu nəqliyyatının da əsaslı inkişafına təkan vermişdir. O dövrə qədər keçmiş SSRİ dəmir yolları sistemində elektrikləşmə, müasir rabitə və işarəvermə, dartı qüvvələrinin tətbiqi, lokomotiv və vaqon parklarının yenilənməsi, yeni xətlərin çəkilişi, stansiyaların texniki inkişafı sürətlə həyata keçirilirdi. Azərbaycanın dəmir yolu təsərrüfatı isə diqqətdən kənarda qalaraq ümumi inkişafdan geridə qalmışdı. Çünki həmin dövrdə Azərbaycana ancaq aqrar respublika gözü ilə baxılır, sənaye və nəqliyyatın inkişafına diqqət yetirilmirdi. Dahi rəhbər Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğı qısa zaman kəsiyində öz bəhrəsini verdi. Dəmir yolu üçün ən əsaslı sayılan yol təsərrüfatının və stansiyaların inkişafı ön plana çəkildi, yeni vağzal binaları inşa olundu. Əgər 1969-cu ilə qədər Azərbaycanda 159 dəmir yolu stansiyası var idisə, qısa müddətdə onların sayı 176-ya çatdırıldı. Bu dövrdə 482,8 kilometr məsafədə yeni dəmir yolu xətləri çəkildi, Ələt-Astara, Naxçıvan-İmişli, Şərur-Culfa və digər sahələrdəki stansiyalarda yoldəyişdirici və işarəvermə qurğuları tam dispetçer mərkəzinə qoşuldu. Həmçinin dəmir yollarının 1284 kilometri tam elektrikləşdirildi.

Naxçıvan dəmir yolu stansiyası bütün dövrlərdə xalq təsərrüfatı yüklərinin və əhalinin daşımaya olan tələbatının vaxtında və təhlükəsiz yerinə yetirilməsində müstəsna əhəmiyyət kəsb etmişdir. Muxtar respublikada yük və sərnişin daşımalarına olan tələbatı təmin etmək, xidmətin səviyyəsini yüksəltmək məqsədilə ulu öndərimizin şəxsi təşəbbüsü ilə 1976-cı ildə dəmir yollarının Naxçıvan Hissəsinin mərkəzi aparatı İmişli stansiyasından Naxçıvan şəhərinə köçürülmüş və hərtərəfli fəaliyyəti təmin olunmuşdur. 1988-ci ildə Culfa-Şərur sahəsinin elektrikləşdirilməsi nəticəsində dəmir yolu nəqliyyatında elektrovoz dartısından istifadə olunmuşdur.

Ötən əsrin 90-cı illərində baş verən hadisələr, erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi dəmir yolu şəbəkəsinə də ciddi ziyan vurmuş, 240 kilometrdən artıq dəmir yolu xətti dağıntılara məruz qalmışdır. Nəticədə, Mehri-Kərçivan sahəsində qatarların hərəkəti dayandırılmış, Naxçıvan Muxtar Respublikası ölkədən təcrid edilərək blokada vəziyyətinə düşmüşdür. Blokada şəraitində olmasına baxmayaraq, ümummilli liderimizin gərgin əməyi sayəsində dəmir yolu nəqliyyatı öz fəaliyyətini dayandırmamış, muxtar respublikada daşımaya olan tələbatın ödənilməsinə nail olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra dəmir yolu nəqliyyatı da özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Son illər ölkəmizdə, eləcə də muxtar respublikada bu sahədə həyata keçirilən tədbirlərin həcmi daha da artmış, dəmir yolu nəqliyyatı infrastrukturunun müasirləşdirilməsi istiqamətində ardıcıl və kompleks tədbirlər görülmüşdür. ***"Blokadanın yaratdığı çətinliklərə baxmayaraq, muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına xüsusi diqqət yetirilir, bu sahə daim işlək vəziyyətdə saxlanılır. Çünki Naxçıvanın işğalçı ölkə ilə sərhəddə yerləşməsi dəmir yolu nəqliyyatının inkişafını zəruri edir"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti üçün müasir iş şəraiti yaradılmış, vağzal binaları, stansiyaların idarəetmə mərkəzləri, digər inzibati və yardımçı binalar əsaslı təmir olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Proqrama uyğun olaraq, mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa lokomotiv deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və radio-rabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilmişdir. Proqramın icrası çərçivəsində xidməti ərazidəki körpülər təmir olunmuş, yeni dəmir yolu keçidləri tikilmiş və ya yenidən qurulmuşdur. Muxtar respublikada yolnəqliyyat kompleksinin yenilənməsi istiqamətində görülən işlərin davamı olaraq Qarabörk və Vəlidağ stansiyalarında yükləmə və boşaltma meydanı yaradılmış, 2011-ci ildən Vəlidağ stansiyasından Qarabörk stansiyasına qum-çınqıl, Şahtaxtı stansiyasından isə Naxçıvan və Qarabörk stansiyalarına travertin-mərmər bloklarının daşınmasına başlanılmışdır.

Ötən il dekabrın 26-da cəmiyyətin İnfrastruktur İdarəsinin inzibati binası əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir. Hazırda Ordubadda sərnişin vağzalı və yol sahəsinin inzibati binalarının tikintisi, idarəetmə mərkəzi və yol sahəsinin yardımçı binalarının əsaslı təmirinin davam etdirilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamlı xarakter almasının əyani ifadəsidir.

İnfrastrukturun daim yenilənməsi, xidmətin səviyyəsinin yüksəldilməsi muxtar respublikada nəqliyyatın bu növündən istifadə edənlərin də sayının artmasına səbəb olmuşdur. Bu ilin 9 ayında dəmir yolu nəqliyyatından 99 mindən çox sərnişin istifadə etmiş, vaqonlar vasitəsilə 67 min 571 ton tikinti materialları, 88 min 382 kiloqram poçt-baqaj yükü daşınmışdır.

Muxtar respublikada dəmir yolu nəqliyyatı sahəsində ixtisaslı kadrlara olan tələbatın ödənilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrasına uyğun olaraq Naxçıvan Dövlət Texniki Kollecində və Naxçıvan Dövlət Universitetində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr üçün müasir əyani dərs vəsaitləri ilə təmin olunan auditoriya istifadəyə verilmişdir. Cari ildə universitetin 9 tələbəsi müqavilə yolu ilə mühəndislik vəzifəsinə qəbul edilərək istehsalatda əmək fəaliyyətlərini, 5 nəfəri isə istehsalat təcrübəsini başa vurmuşdur.

Ötən illər ərzində muxtar respublika dəmiryolçularından 2 nəfəri Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 2-si "Azərbaycan Respublikasının Əməkdar mühəndisi" fəxri adına layiq görülmüş, 1 dəmiryolçu "Şöhrət", 18 nəfər isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

*Dəmiryolçular bundan sonra da öz işlərini günün tələbləri səviyyəsində quracaq, sərnişinlərə nümunəvi xidmət göstərəcək və muxtar respublikanın sosial-iqtisadi inkişafına öz töhfələrini verəcəklər.*

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 767